Respublika.- 2025.- 25 iyul (№ 152).- S.9.



# İrəvanda kim qaldı ki?..



*İrəvan Qərbi Azərbaycanın nəinki bütün Qafqazda, hətta Şərq ölkələrində belə ən iri ticarət, elm və mədəniyyət mərkəzi, müsəlman şəhəri olmuşdur. Burada bir-birindən yaraşıqlı 8 məscid tikilmişdi. Əzəmətli Göy məscid və Çünlüklü məscid son dövrlərə qədər qalırdı. Şəhərin bir tərəfi mənbəyini Göyçə gölündən olan Zəngi çayının sıldırım təpəsi üstündə, o biri tərəfi isə çuxurda yerləşir.*

Ağrı dağı vadisi buraya qədər uzanır. İrəvanın ətrafı sıx meşə və bağlarla əhatə olunmuşdu. İrəvanın başı üzərində fəlakət qasırğası zaman-zaman ötüb keçmişdir. Bu ağrılı-acılı günlərdə Şimali və Cənubi Azərbaycanın İrəvana köməyi sayəsində əhalinin şəhəri bərpa etməsi, viranəlik-xarabalıq üzərində yenidən dirçəltməsi bir daha sübut edir ki, qondarma Ermənistan ərazisi Azərbaycanın ayrılmaz bir parçası, azərbaycanlıların əzəli, doğma məskəni olmuşdur. 1880-ci ildə İrəvanda səfərdə olan arxeoloq Uvarov məşhur Göy məscidin uzaqdan cəlb edən gümbəzinə və bir cüt uca minarəsinə baxaraq heyranlıqla yazırdı: "Məscidin üstündən boylanan çətir sanki müsəlman aləmində tutduğu mövqeyinin nə qədər mühüm olduğunu bütün dünyaya sübut etmək istəyir".

Mən hələ orta məktəbdə təhsil aldığım illərdə İrəvan şəhəri ilə bağlı zəngin məlumatım var idi. Atam Telman və anam Qalibə ixtisasca müəllim idi. Onların hər ikisi ali təhsilini İrəvan şəhərindəki Pedaqoji İnstitutun Azərbaycan şöbəsində almışdı. Hələ orta məktəbdə təhsil alarkən tarix fənninə böyük maraq göstərirdim. İrəvan şəhəri ilə bağlı daha mükəmməl məlumatlar bilmək istəyirdim, bu sahədə atam ən yaxşı köməkçim oldu. Boş vaxtlarında o İrəvanla bağlı mənə xatirələrini danışardı. Atam deyirdi ki, 1828-1840-cı illərdə Ermənistan vilayətinin mərkəzi, sonra qəza şəhəri, 1849-cu ildən isə quberniya mərkəzi olan İrəvanın ictimai-siyasi həyatında yeni mərhələ, rus şovinizminin əsarəti mərhələsi başlasa da, dini fanatizm feodal dünyagörüşlü əhalinin mənəvi aləminə güclü təsirini saxlayırdı. Buna baxmayaraq, Azərbaycanın ümumi inkişaf aləmi ilə həmahəng öz kökünə sıx bağlı olan İrəvan əhalisi arasında "Zülmət aləmində işıq" olan görkəmli ziyalılar yetişirdi.

İrəvan şəhərinin yerləşdiyi ərazi müxtəlif dövrlərdə Urartu, Sasani, Ərəb xilafəti, Sacilər, Şəddadilər, Səlçuqlar, Eldənizlər, Teymurilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Əfşarlar, Qacarlar və Çar Rusiyası dövlətinin tərkibinə daxil olmuşdur. Yalnız 1918-ci ildə Cənubi Qafqazda ilk erməni dövləti yarandıqdan sonra İrəvan şəhəri Ermənistanın paytaxtına çevrilmişdir.

Tarixi mənbələr göstərir ki, qədim İrəvan şəhərində bir vaxtlar ermənilər azlıq təşkil etmişlər. Öz havadarlarının köməyi ilə müxtəlif dövrlərdə İrandan və Türkiyədən köçürülüb gətirilən ermənilər ayaqlarına yer etdikdən sonra bu yerlərin əsl sahibləri olan Azərbaycan türklərinə qarşı xəyanət toru hazırlamış, mərhələ-mərhələ çar Rusiyası tərəfindən silahlandırılmış və Qərbi Azərbaycan ərazisində soydaşlarımıza qarşı analoqu olmayan terror hadisələri törətmişlər. 1918-1920-ci illərdə erməni vandalları İrəvan şəhərində yaşayan azərbaycanlılara qarşı qırğınlar törətmiş, çox sayda insanlar doğma ocaqlarını tərk etmiş, haylar belə qırğınları Vedi, Dərələyəz, Amasiya, Göyçə mahalı, Lori-Pəmbək, Zəngəzur mahalı və digər ərazilərdə törətmişlər.

1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra İrəvanın azərbaycanlı əhalisinin az bir hissəsi doğma yurdlarına qayıtmış, çox keçmədən İrəvandakı azərbaycanlıların həyat səviyyəsi yaxşılaşdırılmışdır.

Sovetlər İttifaqı dövründə İrəvanda Pedaqoji İnstitutun Azərbaycan fakültələri, Cəfər Cabbarlı adına İrəvan Dövlət Dram Teatrı, Axundov adına Azərbaycan məktəbi, Dəmirçi Kənd Təsərrüfatı Texnikumu fəaliyyət göstərirdilər. Ermənilər şovinist ideyalarından yenə də əl çəkmədilər. 1948-1953-cü illərdə deportasiyaya məruz qalanlar sırasında İrəvan şəhərinin sakinləri də var idi.

Ermənilər Qərbi Azərbaycandan azərbaycanlıların izini itirmək üçün 1988-ci ildə Mixail Qorbaçovu və digər ermənipərəst qüvvələri ələ alıb Qarabağ problemini yaratdılar. Çox keçmədən soydaşlarımız zorla min illər boyu yaşadıqları ata-baba torpaqlarından çıxarıldı.

Artıq son deportasiyadan 37 il keçir. İrəvanda, Qərbi Azərbaycanda kim qaldı ki?.. Çox gözləməyəcəyik, haqq-ədalət darıxmış insanlara məlhəm olacaq.

**Sabutay HACIYEV,**
**mühəndis-kimyaçı, tədqiqatçı.**